RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2016.04.02.00079




# AZƏRBAYCANDA XANƏNDƏLİK SƏNƏTİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Əhsən Əhmədov[1]

**ÖZET**

Xanəndəlik sənəti qədim ustad ənənələrinə əsaslanan bir sənətdir. Xanəndələr ustadlarından muğamın sirlərini öyrənərək, ənənələrini davam və inkişaf etdirirlər və özünəməxsus xüsusiyyətlərlə zənginləşdirirlər. Xanəndələr - klassik ənənələrə əsaslanan muğam ifaçısı olub, musiqi mədəniyyətini öz yaradıcılıq - ifaçılıq fəaliyyəti ilə zənginləşdirmişdir. Xanəndələrin sazanda dəstələrinin müşayiətilə ifa edərək yaratdıqları muğamlar nadir sənət nümunələri kimi milli musiqi xəzinəsinə daxil olmuşdur. Eyni zamanda, xanəndələr – öz biliklərini və ənənələrini gələcək nəsillərə ötürən ustad, müəllimdir, Azərbaycan bəstəkarlarının operalarında və vokal-instrumental əsərlərində əsas partiyalarda çıxış edən konsert və opera ifaçısıdır. Xanəndə  kadrlarının hazırlanması, konsertlərdə və muğam operalarında çıxış edən xanəndələrin yetişməsində Azərbaycanın ustad xanəndələrinin əməyi qeyd olunmalıdır.

**Açar sözlər:** muğam, xanəndə, ənənələr, konsert, opera

## РАЗВИТИЕ ИСКУССТВА ХАНЕНДЕ В АЗЕРБАЙДЖАНЕ

Ахсан Ахмедов

**РЕЗЮМЕ**

Искусство ханенде, основанно на традициях пения древних мастеров. Обучаясь секретам  исполнительского мастерства мугама, ханенде хранят и развивают традиции азербайджанского мугама  и обогащают своими оригинальными интерпретациями. Ханенде – певцы, исполнители мугамов классической традиции, которые обогатили музыкальное искусство своими творческой-исполнительской деятельностью. Созданные ханенде в сопровождении музыкального ансамбля вокально-инструментальные мугамы являются уникальными произведениями  искусства и вошли в сокровищницу национальногомузыкального искусства. В то же время, ханенде – мастер, педагог, который передает свои знания и традиции будущему поколению, концертный и оперный исполнитель, выступающий на сцене, исполняющий основные партии во многих операх и вокально-инструментальных произведениях Азербайджанских композиторов. Следует отметить важную роль мастеров  мугама в обучении певцов, выступающих на концертах и в мугамных операх,  продолжателей древних традиций искусства мугама.

**Ключевые слова:** мугам, ханенде, традиции, концерт, опера

---

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

**THE DEVELOPMENT OF ART SINGERS IN AZERBAIJANI**

**AhsanAhmadov**

**ABSTRACT**

The art singers, based on tradition of singing the ancient masters. Learning the secrets of mastery mugham singers keep and develop the traditions of Azerbaijani mugam and enrich their original interpretations. Singers - mugham performers of classical traditions that have enriched the musical art of their creative-performing activities. Singers accompanied by musical ensemble vocal and instrumental mugam is a unique work of art and the treasury of national music art. At the same time, the singers - master teacher who conveys his knowledge and tradition to future generations, a concert and opera singer, performing on stage, performing major parties in many operas and vocal and instrumental works by Azerbaijani composers. It should be noted an important role of masters of mugham in the training of singers, performing in concerts and in mugham operas, successors to the ancient traditions of the art of mugham.

**Keywords:** mugham, singer, traditions, concert, opera

## GİRİŞ

Muğam – Azərbaycan xalqının musiqi irsinin zəngin sərvətidir. Müasir dövrdə Azərbaycanda muğam sənəti yüksək səviyyədə inkişaf etdirilir. Görkəmli muğam ifaçılarının yaradıcılıq irsi qorunur və dünya miqyasında təbliğ olunur. Azərbaycan xanəndələrinin ifaçılıq sahəsindəki nailiyyətlərini musiqi mədəniyyətinin əlamətdar hadisələri kimi qeyd etməliyik. Muğam ifaçılığı və muğam yaradıcılığının vəhdətdə tədqiq olunması vacibdir. Digər tərəfdən, musiqi sənətində yeni yollar açmış ustad sənətkarların yaradıcılıq fəaliyyətinin öyrənilməsi zəruridir və onların tarixi rolunun qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan müasir dövrdə xanəndəlik sənətinin müxtəlif cəhətlərdən – ifaçılıq, yaradıcılıq, pedaqoji sahələrdə tədqiqi, onların Azərbaycan şifahi ənənəli professional musiqi mədəniyyətinin inkişafındakı rolunun öyrənilməsi müasir musiqişünaslıqda aktual məsələlərdəndir.

Xanəndəlik sənətinin inkişafında dövrləşmə - cəmiyyətin mədəni-ictimai həyatı ilə bağlı olaraq aparıla bilər. Azərbaycan xanəndəlik sənətinin inkişafında hər bir tarixi-siyasi dövr özünəməxsus cəhətlərlə əlamətdar olmuşdur. Elmi ədəbiyyata, tarixi faktlara, ədəbi mənbələrə, o cümlədən, muğam ifaçılarının fəaliyyətinə əsaslanaraq, xanəndəlik sənətinin tarixi inkişaf yolunun dövrləşməsini bu şəkildə aparmaq olar: I. Qədim dövrdən başlayaraq, erkən orta əsrlər (X əsrə qədər) dövrünə qədər – xanəndəlik sənətinin yaranması ilə bağlı ilkin məlumat; II. Orta əsrlər, X-XVII əsrlər – Şərq İntibahı dövrü, klassik poeziyanın və muğam sənətinin inkişafı; III. XVIII – XIX əsrlər – Azərbaycanın ayrı-ayrı bölgələrində muğam məktəblərinin meydana gəlməsi, Azərbaycan tarının yaranması; IV. XX əsr və XXI əsrin ilk onillikləri, hazırkı dövrə qədər - xanəndəlik sənətinin yüksək inkişaf dövrü.

Xanəndəlik – muğam ifaçılığı sənətinin yaranmasının I dövrü qədim dövrlərdən başlanır və muğamın bir janr kimi formalaşmasına - X əsrə qədər davam edir, buraya İslamaqədərki və İslamdan sonrakı erkən orta əsrlər dövrünü də aid edə bilərik. Həmin dövrdə xanəndəlik sənətinin yaranması ilə bağlı tarixi və elmi mənbələrdən məlumat alırıq. Son onilliklərdə aparılmış bir sıra tədqiqatlarda arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış mənbələrdə xanəndəlik sənətinin qədim köklərə malik olduğundan xəbər verilir (1). Bu dövrdə şifahi ənənəli musiqidə xalq musiqisi, aşıq və muğam sənəti kimi təbəqələşmə əmələ gəlmiş, aşıq

yaradıcılığı və muğam ifaçılığı xanəndə sənəti şifahi ənənəli musiqinin peşəkar sahələri kimi, ustad ənənələri əsasında formalaşmışdır.

Musiqişünas-alim R.Zöhrabov "Muğam" kitabında şifahi ənənəli Azərbaycan musiqisinin üç təbəqədən ibarət olduğunu göstərmişdir: "xalq (mahnı və rəqs musiqisi janrları), xalq-professional (aşıq musiqi yaradıcılığı) və sırf şifahi-professional musiqi janrları (muğam dəstgahları, kiçik formalı muğamlar, zərbi-muğamlar, rənglər və təsniflər)"(1, 6). Bu təbəqələri səciyyələndirən alim yazır ki, "...xalq musiqi növləri və şifahi ənənəyə əsaslanan professional musiqi janrları bütün dövrlərdə bir-birilə çox sıx əlaqədədir. Öz kökləri ilə gedib qədim dövrlərə çatan xalq musiqi yaradıcılığı şifahi ənənəyə əsaslanan professional musiqi sənətinin yaranması və getdikcə inkişafı üçün faydalı zəmin olmuşdur" (1, 5).

Bu baxımdan yanaşsaq, qeyd etməliyik ki, yuxarıda göstərilən hər bir yaradıcılıq təbəqəsinin özünəməxsus ifaçılıq ənənələri, musiqi irsi, tətbiqi sahələri əsrlər boyu formalaşmış, bir-birinə qarşılıqlı surətdə təsir edərək, təkmilləşmiş və bizim günlərə çatmışdır. Buna görə də ifaçılıq sahələrinin köklərini qədim dövrlərdə aramaq lazımdır. Belə ki, xalq arasından çıxmış, xalq musiqisi üzərində yetişmiş, istedadlı insanlar musiqini özünə peşə seçərək, aşıq, xanəndə və ya instrumental ifaçı kimi fəaliyyət göstərmişlər. Onların formalaşdırdıqları ifaçılıq üslubları və ənənələri yaddaş vasitəsilə gələcək nəsillərə ötürülərək təkmilləşmişdir. Elmi ədəbiyyatda müxtəlif dövrlərdə xanəndəlik – müğənnilik sənətinin formalaşması, onların yaradıcılıq məhsulu olan muğamların, təsniflərin meydana gəlməsi və inkişafı ilə bağlı məlumata rast gəlinir.

Muğamın bir janr kimi formalaşması prosesi X-XII əsrlərə aid edilsə də, ifaçılıq-yaradıcılıq kökləri həmin dövrə qədər tədriclə yetişmişdir və bu prosesdə dinin də təsiri az olmamışdır. Qədim dövrlərdən cəmiyyətin musiqi həyatında xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı, dini musiqi və saray musiqisindən ibarət təbəqələrdə öz əksini tapmışdır. Tarixi inkişaf mərhələlərində bunlar müəyyən təkamülə məruz qalmış, bir-birinə qarşılıqlı təsir göstərərək, şifahi ənənəli musiqi mədəniyyətinin özünəməxsus xüsusiyyətlərə malik sahələri kimi inkişaf edib, bizim günlərə çatmışlar və bu proses bu gün də davam etdirilir.

Xanəndəlik sənətinin təşəkkülünün II dövrü orta əsrlərə aid olub, X əsrdən başlayaraq, klassik poeziyanın və muğam sənətinin inkişafı ilə səciyyələnir. Elmi ədəbiyyatda "Şərq intibahı" adlandırılan orta əsrlər dövrü bəşər tarixinə bir sıra mütəfəkkir şair və filosofları bəxş etmişdir.

Şərq aləmində orta əsrlər dövründə muğam ifaçılığı sənəti böyük şəhərlərdə saray mədəniyyəti kimi çiçəklənmə dövrünü yaşayıb. Muğamın bir janr kimi formalaşması, muğam ənənələrinin, terminologiyanın yaranması, muğam tərkiblərinin sistemləşməsi bu dövrə aiddir. Xanəndəlik - saray musiqiçisi kimi xarakterizə olunaraq, musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamağa başlamış, muğam ifaçılığı sənəti şifahi ənənəli professional musiqinin yüksək inkişaf etmiş təbəqəsini təşkil etmişdir.

Klassik poeziyanın və muğam sənətinin inkişafı dövrü kimi mədəniyyət tarixinin xüsusi bir mərhələsi olan Orta əsrlər dövrünün əsas ifaçılıq xüsusiyyətləri haqqında məlumat Şərqin böyük şairlərinin yaratdığı klassik poeziya nümunələrində və Şərq aləminin görkəmli ensiklopedik alimlərinin risalələrində bizə gəlib çatmışdır. Bu dövr haqqında məlumat verən əsas ədəbi və elmi mənbələr kimi "Qabusnamə" (Keykavus, XI əsr) əsərini, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Xaqani Şirvani (XII əsr), İmadəddin Nəsimi (XIII-XIV əsrlər), Şah İsmayıl Xətai (XIV əsr), Füzuli (XVI əsr) kimi şairlərin poeziyasını, Səfiəddin Urməvi (XIII əsr),

Əbdülqadir Marağayi (XIV-XV əsrlər), Fətullah Şirvani (XV əsr), Mirzə bəy (XVII əsr) və başqa musiqişünas-alimlərin elmi əsərlərini qeyd edə bilərik.

Məhz bu dövrdə muğam bir janr kimi formalaşmış, Şərq musiqi təfəkkürünün ən yüksək forması kimi inkişaf edərək, şifahi ənənəli professional musiqinin mərkəzi janrına çevrilmişdir. Orta əsrlərdə muğam ifaçılığı ilə yanaşı, musiqinin tədqiqinə həsr olunmuş risalələr yaranmışdır. Həmin dövrə aid ədəbi və elmi mənbələrdə xanəndəlik sənəti ilə bağlı məlumat öz əksini tapmışdır (2).

Xanəndəlik sənətinin tarixi inkişafının III dövrü XVIII – XIX əsrləri əhatə edir. Bu dövrün əsas hadisələri Azərbaycanın ayrı-ayrı bölgələrində – Qarabağ, Abşeron, Şirvan və s., muğam ifaçılığı ənənələrini yaşadan muğam mühitlərinin və muğam məktəblərinin meydana gəlməsi ilə bağlıdır (3). Həmçinin, XIX əsrdə böyük tarzən Mirzə Sadıq Əsəd oğlunun yaradıcılıq fəaliyyəti - Azərbaycan tarının yaranması muğam sənətinin inkişafının yeni mərhələsi olmuşdur. Bu dövrdə Azərbaycan muğamının inkişafı, ifaçılıq ənənələrinin ötürülməsinin genişlənməsi, xanəndəlik sənətinin yeni mərhələyə qədəm qoyması müşahidə olunur. Görkəmli şair və yazıçıların, alimlərin və muğam bilicilərinin – Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab və b. yaradıcılığı, müxtəlif bölgələrdə fəaliyyət göstərən poeziya və musiqi məclisləri, muğam məktəbləri bu dövrün əlamətdar hadisələridir. Xanəndələrin ənənəvi fəaliyyət sahələri – toy məclisləri ilə yanaşı, onların yaxından iştirakı ilə keçirilən poeziya və musiqi məclisləri muğam ifaçılığının inkişafında böyük rol oynamışdır.

Azərbaycanda muğam ifaçılığı məsələlərini araşdırarkən XIX əsrə kimi xanəndələr və məktəblər haqqında geniş məlumata rast gəlmirik. Lakin adı çəkilən dövrdən başlayaraq xanəndəlik sənəti özünün yeni mərhələsinə qədəm qoyur, artıq xanəndələr özləri də müxtəlif təbəqələrə bölünür. Musiqi mədəniyyətində xanəndə - sənətkar, ustad, yaradıcı-ifaçı kimi önəmli yer tutmağa başlayır.

XIX əsrin I yarısında Azərbaycanda xanəndəlik sənətinin yüksəliş dövrü başlandı. İlk dövrdə, bu Azərbaycanın müxtəlif şəhərlərinin adı ilə bağlı idi. Bu şəhərlər arasında Şuşa, Şamaxı daha sonralar isə Bakı xüsusi yer tuturdu. Adını çəkdiyimiz şəhərlər arasında Şuşanın öz payı var. Çünki xanəndəlik sənətinin, daha doğrusu musiqi sənətinin inkişafı məhz bu şəhərin adı ilə bağlıdır desək, yanılmarıq. Ümumiyyətlə, Qarabağ xanəndəlik məktəbi bütün zamanlarda digər məktəblərə nisbətən daha böyük tarixə malik olub, Azərbaycan xanəndəlik sənətində öz sözünü demiş yüzlərlə böyük xanədənin beşiyi olmuşdur.

Bu dövrdə böyük şəhərlərdə musiqi məclislərin təşkil olunması ilə muğam dəstgahları təkmilləşdirilir, müxtəlif şöbə və guşələrlə zənginləşdirilir, yeni yaradılan təsnif və rənglər səsləndirilirdi. Çox zaman yaradıcılığa başlayan musiqiçilər burada ustad sənətkarlardan xeyir-dua alırdılar. Bu məclislər muğam sənətini inkişafı üçün çox önəmli idi və muğam ifaçıları üçün əsl ustadlıq məktəbinə çevrilmişdi.

XIX əsrin II yarısında muğam ifaçılığını tədris edən məktəblər meydana gəlməyə başladı ki, bunlar dini mahiyyət daşıyırdı. Xarrat Qulu dini mərasimlərdə iştirak etmək üçün gözəl səsi olan gəncləri öz məktəbinə cəlb edir, onlara muğamatı və oxumaq qaydalarını öyrədirdi. Lakin inkarolunmaz bir faktdır ki, bu məktəb sonradan muğam tədris edən musiqi məktəblərinə nümunə olmuşdur. Qarabağın ən görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Şahnaz Abbas, Əbdülbaği Zülalov (Bülbülcan), Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdı oğlu və məşhur tarzən Sadıqcan həmin məktəbin yetişdirmələridir (4). Beləliklə, Xarrat Qulunun məktəbinə Qarabağ muğam ifaçılığı məktəbinin inkişaf tarixində mühüm bir mərhələ kimi baxmaq lazımdır.

XX əsrə qədərki dövrdə xanəndəlik sənətinin inkişafından söhbət açarkən əsas diqqətimizi iki amilə yönəltməliyik. Bu dövrdə muğam ifaçılığının - xanəndəliyin inkişafına musiqi məclisləri və musiqi məktəblərinin rolunu vurğulamalıyıq. Məhz bu məclislər və məktəblər XX əsrin əvvəllərində muğam ifaçılığı sənətinin qızıl dövrünü yaşamasına səbəb olmuşdur.

Muğam ifaçılığı sənətinin IV inkişaf mərhələsi XX əsr və XXI əsrin ilk onillikləri, hazırkı dövrə qədər - xanəndəlik sənətinin yüksək inkişaf dövrü kimi xarakterizə oluna bilər. Nəzərə almalıyıq ki, xanəndələr xalqın nümayəndələri olaraq, cəmiyyətin həyatında yaxından iştirak etmişlər. Dövrün ictimai-siyasi hadisələri onlardan yan keçməmişdir, həm tarixi-siyasi, həm də ictimai-mədəni hadisələr musiqi mədəniyyətinin mühüm bir qolu olan muğam sənətinin inkişafına təsir göstərmişdir.

XX əsri tarixi-siyasi hadisələrə əsaslanaraq, bir neçə mərhələyə bölmək olar. XX əsrdə Azərbaycan cəmiyyətində dörd ictimai formasiya özünü göstərir: rus imperiyası dövrü, Azərbaycan Xalq Cümhuriyyəti dövrü, Sovet dövrü və müstəqil Azərbaycan Respublikası dövrü. Hər bir dövrün özünəməxsusluğu, mədəniyyətin inkişafına müsbət və mənfi cəhətləri qeyd olunmaqla, deməliyik ki, muğam ifaçılığı sənəti əvvəlki dövrlərdə əldə etdiyi ənənələri davam etdirərək, inkişaf etmiş, yeni nailiyyətlər əldə etmişdir.

Birinci mərhələ - Rus imperiyası dövrü, XIX əsrdən başlayaraq, XX əsrin əvvəllərinə - 1917-ci ilə kimi davam edən, çarizmin hökmranlığı dövrü; I Dünya müharibəsi illəri (1914-1919). Bu dövrdə Azərbaycan musiqi mədəniyyəti üçün yeni bir mərhələ - Azərbaycan operasının yaranması (1908) və bəstəkarlıq məktəbinin təməlinin qoyulması kimi əlamətdar bir hadisə ilə başlamışdır. Azərbaycanın şifahi ənənəli musiqi ifaçılığında, o cümlədən, xanəndəlik sənətində yeni yüksəliş dövrü müşahidə olunur.

XX əsrin əvvəlləri muğam ifaçılarının fəaliyyət sahələrinin genişlənməsi, repertuarın zənginləşməsi, muğam janrlarının inkişafı - dəstgahlar, kiçik həcmli muğamlar, zərbi-muğamlar, təsnif və rənglərin yeni nümunələrinin meydana gəlməsi müşahidə olunur. Xanəndələrin Azərbaycanda və xarici ölkələrdə fəaliyyət dairəsi genişlənir. Əvvəlki dövrlərdəki kimi xanəndələr toylar və məclislərdə fəaliyyət göstərməsi ilə yanaşı, xanəndəlik sənətində konsert ifaçısı, opera ifaçısı kimi yeni sahələr meydana gəlir; qrammofon vallarında xanəndələrin səsyazmaları meydana gəlir, onların xarici ölkələrə səfərləri yaddaqalan faktlar kimi musiqi tarixinə daxil olmuşdur.

Xanəndəlik sənətinin inkişafından danışarkən, milli musiqiçilərin qrammafon vallarını xüsusi qeyd etmək lazımdır. Çünki klassik xanəndələrin səslərini qoruyub yaşadan qrammafon valları xalqımızın mədəni sərvətləridir. Bu vallar Azərbaycan musiqisinin təbliğində və dünya miqyasında tanınmasında müstəsna rol oynamışdır. Muğamların və xalq musiqisi nümunələrinin qrammafon vallarına yazılması onların elmi surətdə öyrənilməsinə də yollar açmışdır.

Bu dövrdə yaranmış Azərbaycan musiqi tarixində ilk opera olan Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" (1908) operası, ondan sonra yaranmış "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu", digər muğam operaları, həmin dövrdə meydana gəlmiş Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" və Müslüm Maqomayevin "Şah İsmayıl" muğam operaları xanəndələrin ifası üçün nəzərdə tutulmuşdu. Bu da xanəndə sənətində yeni bir istiqamətin – opera ifaçılığının formalaşmasına təkan verdi. Hal-hazırda da xanəndəlik sənətinin tədrisində opera hazırlığı mühüm əhəmiyyət kəsb edir və bunun sayəsində adı çəkilən muğam operalarında ifaçı nəsilləri yetişdirilir.

XX əsrdə musiqi mədəniyyətinin və o cümlədən, xanəndəlik sənətinin inkişafının ikinci mühüm mərhələsi - Azərbaycan Xalq Cümhuriyyəti dövrü - 1918-ci ildən (28 may) – 1920-ci ilə (28 aprel) kimi; çarizm devrildikdən sonra (1917) xalqların müstəqillik uğrunda mübarizəsinin genişlənməsi nəticəsində yaranmışdır. Bu dövr həm bəstəkarlıq, həm də ifaçılıq sənətinə yeni dövrə uyğun - müstəqillik, türkçülük, qəhrəmanlıq kimi mövzuların daxil olması ilə səciyyələnir.

Belə bir zamanda xanəndə təkcə insanları əyləndirən, xoş ovqat yaradan artist deyil, eyni zamanda şəxsiyyət olmalı, öz ölkəsinin siması, səsi də olmalıdır. Sevindirici haldır ki, az tədqiq olunmasına baxmayaraq, bu dövrdə yaşayıb yaradan xanəndələrimiz təkcə öz maraqlarını güdməmiş, özlərini əsl Azərbaycan vətəndaşı kimi, cümhuriyyəti yaradan insanlarla çiyin-çiyinə çalışmışlar.

1918-ci ilin sonlarında Qafqaz İslam Ordusu tərəfindən Bakının erməni-bolşevik qüvvələrindən azad olunmasından sonra yenidən paytaxtda "Türk gecələri", "Şərq konsertləri" təşkil olunmağa başlandı. Azərbaycan milli musiqisinin, xüsusən xanəndəlik sənətinin inkişafında bu gecələrin xüsusi rolu olmuşdur.

XX əsrdə üçüncü mərhələ - Sovet dövrüdür - 1920-ci ildən (28 aprel) başlanır. Azərbaycan Sovet Respublikasının yaranması və Rusiyanın başçılığı altında SSRİ - Sovet Sosialist Respublikaları İttifaqının tərkibində yaşamasını əhatə edən bu dövr 1991-ci ilə kimi – SSRİ-nin dağılmasına kimi davam etmişdir. Bu dövr özlüyündə bir neçə mərhələyə bölünür: 1920-30-cu illər - cəmiyyətin bütün sahələr üzrə yenidən qurulması, yeni mədəniyyət və təhsil sisteminin qurulması; II Dünya müharibəsi və Böyük Vətən müharibəsi illəri (1941-1945); 1950-60-cı illər – mədəniyyətin inkişafı; 1970-80-cı illər - Azərbaycan mədəniyyətinin inkişafının yeni mərhələsidir. Hər bir dövrdə baş verən ictimai-mədəni hadisələrlə bağlı olaraq, musiqi mədəniyyətində mövzu, janr və ifadə vasitələri baxımından yeniləşmə özünü göstərir. Xanəndəlik sənətində də təkmilləşmə və inkişaf özünü büruzə verir

Bu dövrün ilk illərində - 1920-ci illərdə yeni sovet ideologiyasının təsiri altında muğam ifaçılığı sənətinə müəyyən qədər mənfi münasibət özünü göstərsə də, mütərəqqi musiqi xadimlərinin – Üzeyir Hacıbəylinin başçılığı ilə bəstəkarların və muğam ifaçılarının səyləri nəticəsində muğam sənəti həm musiqi mədəniyyətində, həm də xalqın həyatında öz əhəmiyyətini qoruyub saxlaya bilmişdir.

Bu dövrdə xanəndəlik və muğam ifaçılığı sənətində əvvəlki dövrlərin nailiyyətləri üzərində fəaliyyət sahələrinin davam etdirilməsi ilə yanaşı, təhsil sistemində müəllim kimi fəaliyyəti qeyd olunmalıdır. Musiqi təhsili sisteminin bir qolu kimi, muğam ifaçılığı sənətinin üç pillədən ibarət olan tədrisinin əsası qoyulmuşdur: - uşaq musiqi məktəblərində, orta ixtisas musiqi məktəblərində, ali musiqi məktəblərində muğam - xanəndəlik və xalq çalğı alətləri ifaçılığı tədris olunmağa başlamışdır.

XX əsrin 30-40-cı illərində artıq Azərbaycan xanəndələri təkcə yerli konsert və teatr səhnəsində deyil, ümumittifaq səhnələrində görünürdülər. Onların fəaliyyəti keşmiş SSRİ başçıları tərəfindən yüksək qiymtələndirilirdi. İkinci dünya müharibəsi zamanı onlar ön cəbhədə əsgərlərə konsertlər verir, onları ruhlandırırdılar. Sovet dövründə toy və ziyafətlərə getmək bir qədər məqbul sayılmadığına görə onlar daha çox səhnədə, radioda çıxışlar edir, vallara səslərini yazdırırdılar.

Elmi sahədə folklorşünaslığın inkişaf etdirilməsi istiqamətində muğam ifaçılarının – görkəmli xanəndələrin və tarzənlərin iştirakı ilə not yazıları və səs yazıları irsi meydana gəlmişdir. Muğam ifaçılığı xüsusi tədqiqat obyektinə çevrilmişdir, görkəmli xanəndələr və xalq

çalğı alətləri ifaçıları haqqında elmi və publisistik əsərlər - monoqrafiyalar və məqalələr nəşr edilmişdir. Həmçinin, muğam ifaçılarının elmi tədqiqata marağı artaraq, onların kitabları və məqalələri çap olunur. Bu sahənin sonrakı illərdə daha da genişləndiyini müşahidə edirik.

Müharibə zamanı (1941-1945) və müharibədən sonrakı dövrlərdə milli musiqi ifaçılarımız ağır şəraitdə ölkənin hər yerinə səfərlər edir, konsertlər verirdilər. Onlar hökumətin təşkil etdiyi bütün tədbirlərdə iştirak edirdilər. Maraqlı bir fakt da diqqətimizi cəlb edir – Cənubi Azərbaycan inqilabı zamanı musiqiçilərimiz Təbrizdə və bir sıra böyük şəhərlərdə çıxışlar etmişlər (5).

XX əsrin ikinci yarısında muğam ifaçılığımızdan danışarkən aşağıdakı məqamlara diqqət yetirməliyik.

- XX əsrin əvvəllərində üçlük şəklində çıxış edən xanəndələrimiz artıq xalq çalğı ansamblların müşayiəti ilə konsertlərdə görünməyə başladılar. Bunların arasında Azərbaycanda Əhməd Bakıxanov, Baba Salahov, Əhsən Dadaşov adına xalq çalğı alətləri ansamblları, "Humayun" ansamblını xüsusi qeyd edə bilərik.

- 1956-cı ildə Azərbaycan televiziyasının işə düşməsi ilə sənət xalqa bir az da yaxınlaşdırılmış oldu. 1926-cı ildə Azərbaycan radiosunun xalqın həyatında oynadığı rolu televiziya görə bilirdi. Məhz onun vasitəsi ilə insanlar sevdikləri sənətkarların ifalarını həm görür, həm də eşidirdilər. Beləliklə, Respublikanın ən ucqar bölgələrində yaşayan əhali üçün də sənət nümunələrinin eşidilməsi əlçatan oldu.

XX əsrdə dördüncü tarixi dövr - Müstəqil Azərbaycan Respublikası dövrü – 1991-ci ildən (18 oktyabr) hazırkı dövrə qədər. Bu dövrün ərəfəsində və əvvəllərində xalqın milli azadlıq mübarizəsi yüksək vüsət almış, 1990-cı il 20 yanvar hadisələri xalqın müstəqillik uğrunda mübarizəsinin yüksək nöqtəsi kimi tarixə daxil olmuşdur.

1993-cü ildən Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına başçılıq etməsilə ölkə siyasi, iqtisadi, mədəniyyət və s. sahələr üzrə yüksəliş dövrünə qədəm qoymuşdur. Azərbaycan beynəlxalq aləmdə müstəqil daxili və xarici siyasət yeridən güclü dövlət kimi tanınmışdır. Bu dövr, həmçinin, musiqi mədəniyyətinin yüksəlişi, beynəlxalq əlaqələrinin genişləndirilməsi ilə əlamətdardır.

Ölkəmizin müstəqillik dövründə Qarabağda baş verən faciəvi hadisələr bütün cəmiyyətdə olduğu kimi, mədəniyyətdən, bilavasitə muğam ifaçılarının yaradıcılığından da yan keçməmişdir. Qədim ənənələrə malik Qarabağ muğam ifaçılığı məktəbinin ənənələrinin davamçıları olan xanəndələrin fəaliyyəti, Azərbaycan muğamının mühüm bir qolu kimi Qarabağın musiqi ənənələrini yaşatmağa və dünyada təbliğ etməyə yönəlmişdir. Bu istiqamətdə dövlətin apardığı siyasətdə Qarabağlı muğam ifaçıları, xüsusilə xanəndələr öz sənətləri ilə mühüm rol oynayır, Qarabağ muğam ifaçılığı ənənələrinin Azərbaycan musiqi mədəniyyətindəki rolunu və əhəmiyyətini beynəlxalq miqyasda təbliğ edirlər.

XXI əsrin başlanğıcı – muğamın yeni intibah dövrü, beynəlxalq muğam layihələrinin həyata keçirilməsi, xanəndələrin beynəlxalq arenada fəaliyyətinin genişlənməsi dövrü kimi xarakterizə oluna bilər. XXI əsrin əvvəllərindən Heydər Əliyev Fondunun fəaliyyəti birbaşa Azərbaycan muğamının qorunmasının, yaşadılmasının və gələcək nəsillərə ötürülməsinin təmin edilməsinə yönəldilmişdir. Bu istiqamətdə görülən bütün işlər bilavasitə xanəndələrin və xalq çalğı alətləri ifaçılarının milli musiqi mədəniyyətinin inkişafındakı rolunu artırmaqla, Azərbaycan muğam sənətinin dünya məkanında təbliğini və yayılmasını reallaşdırmışdır.

**SONUÇ**

Beləliklə, XX əsrdən başlayaraq, xüsusilə XX əsrin II yarısından və XXI əsrin əvvəllərində xanəndələrin fəaliyyət sahəsi çox genişlənmişdir. Xanəndələr həm muğam ifaçısı – ansamblın solisti, həm operanın solisti, həm də müəllim kimi tanınırlar, muğam sənətinin və bəstəkar yaradıcılığının inkişafında mühüm rol oynayırlar. Müasir dövrdə bütövlükdə xanəndəlik sənətinin, həmçinin, ayrı-ayrı Azərbaycan xanəndələrinin yaradıcılığının öyrənilməsi musiqişünaslıqda həlli vacib məsələlərdən biri kimi diqqəti cəlb edir.

**KAYNAKLAR**

1. Hüseyni Ə. Orkestrin ulu babası. "Ədəbiyyat və incəsənət" qəz. Bakı, 1976, 7 avqust, s.4.
2. Səfərova Z. Azərbaycanın musiqi elmi. XIII-XX əsrlər. Bakı, 1996. s.213.
3. Zöhrabov R. Muğam. Bakı, 1991. s.42
4. F.Şuşinski. Musiqiçinin düşüncələri B.,1995, s.65.
5. Əliyeva F. Azərbaycan musiqisinin cənub səhifəsi. "Musiqi dünyası" jurnalı, № 3-4 (33), 2007, s.98.